2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2014-cü il tarixli 83 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 28 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə 1 saylı seçki məntəqəsində müşahidəçi olmuş Abdullayev Arif Asif oğlu və İbrahimov Xəzər Təhmasib oğlunun 2014-cü il dekabrın 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş, həmin seçki məntəqəsində seçkilərin keçirilməsində qanun pozuntularının olduğunun iddia edilməsinə dair müraciətini araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 8.6-cı bəndinə əsasən **r ə y ə g ə l d i m** :

1. 76 saylı Lənkəran-Astara seçki dairəsi üzrə 1 saylı seçki məntəqəsində müşahidəçi olmuş Abdullayev Arif Asif oğlu və İbrahimov Xəzər Təhmasib oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2014-cü il tarixli 83 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov